**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) Əlişir Nəvayi adına Özbək Dili və Ədəbiyyatı Universiteti ilə birgə ulu öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı "Heydər Əliyev və müstəqillik" mövzusunda konfrans keçirib.**

# Daşkənddə "Heydər Əliyev və müstəqillik" konfransı

Tədbirdə universitetin professor-müəllim heyəti, AMM-in nümayəndələri, tələbələr, Azərbaycan diasporunun üzvləri iştirak ediblər.

Yığıncağı giriş sözü ilə açan universitetin prorektoru, professor Bahadır Xalıqov Özbəkistan–Azərbaycan münasibətləri, ölkələrimiz arasındakı tarixi, mədəni yaxınlıq barədə məlumat verib. O, ulu öndərin Azərbaycanın müasir dövlətçiliyinin əsasını qoyduğunu, biliyə, elmə və texnologiyaya böyük əhəmiyyət verdiyini bildirib. B.Xalıqov Heydər Əliyev Fondunun hökumətin həyata keçirdiyi təhsil siyasətinə güclü dəstək verdiyini və "Yeniləşən Azərbaycana – yeni məktəb" kimi layihələr çərçivəsində ölkədə yüzlərlə məktəb binasının inşa edildiyini vurğulayıb.

AMM-in nümayəndəsi, filologiya üzrə fəlsəfə doktoru Kərimulla dığını, ulu öndərin müdrik fikirlərinin özbək və türk dillərinə tərcümə olunaraq nəşrə hazırlandığını vurğulayıb.

Universitetin kafedra müdiri, professor Nurbay Cabbarov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin elm və təhsilin inkişafına böyük diqqət ayırdığını və bu sahələrin inkişafı üçün müasir prinsiplərə cavab verən addımlar atdığını söyləyib. O müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin Azərbaycanda təhsil sahəsində həyata keçirdiyi islahatların qlobal xarakter daşıdığını və bu xəttin ölkənin hazırkı rəhbərliyi tərəfindən inamla davam etdirildiyini bildirib.

Professor Səadət Muxammedova müasir Azərbaycan dilinin bir dövlət dili kimi formalaşmasında, güclənməsində ulu öndərin xüsusi xitmətlərindən söz açıb.



Məmmədzadə ulu öndərin Azərbaycan xalqının taleyində oynadığı roldan söz açıb, bugünkü qüdrətli Azərbaycanın Heydər Əliyevin əsəri olduğunu vurğulayıb. Azərbaycan xalqının ümumilli liderinin həyatının, siyasi fəaliyyətinin bir məktəb olduğunu qeyd edən K.Məmmədzadə gənc nəslin yetişməsində bu

Universitetin dosenti Gülbahar Aşurova Heydər Əliyevin elm, təhsil və mədəniyyətə dəstək verən siyasətçi kimi xarakterizə edərək onun Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən danışıb.

Sonda Mədəniyyət Mərkəzi tərəfindən universitetdə yaradılan Məhəm-



məktəbdən faydalanmağı tövsiyə edib, onun nitqilərində yer alan ümumbəşəri hikmətli fikirlərin hər bir vətəndaş üçün həyat kodeksi olmasını vurğulayıb. K.Məmmədzadə artıq bu sahədə bir neçə böyük tədbirin keçirildiyini, konfransların, dostluq konsertlərinin təşkil olunduğunu, Özbəkistanda "Heydər Əliyev – 100" poçt markasının buraxıl-

məd Füzuli adına Azərbaycan ocağının tələbələrindən ibarət "Füzuli dilbəndləri" qrupunun üzvləri Heydər Əliyev və Azərbaycan haqqında şeirlər səsləndiriblər.

**Qulu KƏNGƏRLİ,**
**Daşkənd**